Bakalavr pilləsində təhsil almaq üçün müsabiqədə Azərbaycanın ali məktəblərinin bakalavr pilləsində I və II kursunda təhsil alan, bakalavr pilləsinə tələbə qəbulu üzrə aparılan test imtahanları çərçivəsində texniki sahələr üzrə ən azı 550 bal, digər sahələr üzrə ən azı 600 bal toplayan 18 yaşı tamam olmuş tələbələr iştirak edə bilər.

Müsabiqədə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. ərizə-əsaslandırma (2 dildə-Azərbaycan və xarici dildə) ;

2. doldurulmuş xüsusi anket forması (Təhsil Nazirliyində əldə edilir);

3. tövsiyə məktubu (iddiaçının təhsil aldığı ali məktəbin professor-müəllim heyəti tərəfindən verilir, 2 ədəd, formanı http://admission.kaist.ac.kr/sub05/sub05_1.do saytından əldə edə bilərsiniz);

4. http://admission.kaist.ac.kr/sub05/sub05_1.do saytında yerləşdirilmiş müraciət forması və digər faylları (xüsusi anket forması, şəxsi bəyannamə, maliyyə mənbələri haqqında bəyannamə) doldurularaq, elektron versiyaları admission3@kaist.edu elektron poçt ünvanına və çap versiyası Təhsil Nazirliyinə təqdim olunmalıdır.

5.ali məktəbə qəbul vaxtı TQDK tərəfindən topladığı bal haqqında arayış;

6. ali məktəb tərəfindən verilən tələbənin təhsil alması barədə arayışın və qiymət kitabçasından çıxarışın surətləri (notarial qaydada təsdiq olunmuş ingilis dilində tərcüməsi);

7.TOEFL və ya digər beynəlxalq səviyyəli sertifikatı olmalıdır.

8.tərcümeyi-hal (CV) (2 dildə-Azərbaycan və xarici dildə);

9.3,5x4,5 sm. ölçüdə 6 ədəd rəngli fotoşəkil.

10.Şəxsiyyət vəsiqəsinin surəti.

Sənədlər **hər gün saat 10.00-dan 18.00-dək Təhsil Nazirliyində qəbul edilir.**

Sənədlərin təqdim edilməsi üçün son müddət 10 may 2009-cu il.

Əlaqə telefonları: 496-33-11; 496-34-00 (daxili 260; 288).